

Seyran Əliyev

## Kişilər daşıyar qeyrət yükünü

Vətən zor duruma düşdüyü zaman,
Kişilər daşıyar qeyrət yükünü.
Sınağa çəkilər yaxşıyla yaman,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

Ayağa qalxarlar ərlər-ərənlər,
Düşmən gülləsinə sinə gərənlər,
Mərd ölər,namərdsə boş-boş çərənlər,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

Güllə də bəyənməz, dəyməz qorxağa,
Seçər layiqlisin, qurban torpağa,
Mərd verər Vətənə canın sədağa,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

Soylu atam-anam vətəndir deyər,
Şəhid atasının paltarın geyər.
Soysuz qorxusundan ürəyin yeyər,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

Düşmən səngərinə atılan bir daş,
Bir yağı öldürüb olar vətəndaş.
Görsə də düşmənə möhtacdı qardaş,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

İllərcə zəhmət çək, illərcə böyüt
Fərq etməz, sonsuzdu bar vermez söyüd.
Bütün ömrün boyu versən də öyüd,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

## Həsrətim

Mən öləndə tanrım alıb ruhumu,
Qacarıma aparsaydı, nə dərdim,
Qarış-qarış dolaşardım yurdumu,
Hər yerini didik-didik didərdim.

İlk tutardım Böyükdağın yolunu,
Dırmaşardım Ağcığırın qolunu.
Toplayardım qaratikan kolunu,
Deyərdim ki, qızılgüldü, mən dərdim.

Tikanları boyanaydı qanıma,
Ağrıları yayılaydı canıma,
Şəhidlərin ruhun alıb yanıma,
Məzarların ziyarətə gedərdim.

Pirdən qalxıb, Mollabağın keçərdim,
Həştəfərin buz suyundan içərdim,
Köndələnin qıjısını biçərdim,
Balıqların öpüşməsin güdərdim.

Dolaşardım atam salan bağların,
Xatırlardım yemiş-qarpız tağların,
Zənn edərdim yaşadım o çağların,

Bu günümü, o günümə döndərdim.
Sonda qalxıb Qolğatanın yalını,
Seyr edərdim Cəmilənin halını,
Bələdlərdim arısının balını,
Bəlkə köçkün ruhlarına göndərdim.

Axşamüstü evimizə çatardım,
Dərdi-qəmi bir tərəfə atardım,
Dədə-baba ocağını çatardım,
Ölümümü orda bayram edərdim.